Təsdiq edirəm

ADMİU-nun rektoru

__________Professor Ceyran Mahmudova

“12” “oktyabr” 2025-ci il

## AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

**7003009 – İnstrumental ifaçılıq ixtisasının**
**İnstrumental ifaçılıq (Xalq çalğı alətləri ifaçılığı (tar, kamança, qanun, nağara və balaban)  ixtisaslaşması**

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.**

**BAKI – 2025**

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003009 – İnstrumental ifaçılıq ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək; müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;

- o fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- o müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- o istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- o davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.
- o musiqi yönümlü layihələrin təşkili və idarə olunmasında konsert menecmenti prinsiplərindən istifadə etmək;
- o müxtəlif dövrlərə və üslublara aid musiqi əsərlərini texniki və bədii cəhətdən yüksək səviyyədə ifa etmək;
- o solo, kamera və orkestr ifaçılığında iştirak etmək;
- o musiqi üslublarını və ifa texnikalarını təhlil və müqayisə edə bilmək;
- o Azərbaycan və dünya musiqi mədəniyyətinə dair geniş nəzəri bazaya malik olmaq;
- o ifaçılıqda yaradıcılıq və improvizasiya etmək (xüsusilə müasir musiqi və ansambl ifalarında);
- o kamera və ansambl ifalarında harmonik uyğunlaşma, intonativ dəqiqlik və "musical interaction" bacarığından istifadə etmək;
- o ifaçılıq təcrübəsi və nəzəri biliklərə əsaslanaraq ixtisas yönümlü repertuarı hazırlamaq və proqramı fərdi tərtib etmək;
- o musiqi obrazlarını konseptual şəkildə formalaşdırmaq;
- o səhnədə fərdi yaradıcılığını nümayiş etdirmək;
- o ifa etdikləri əsərlər haqqında geniş məlumatlara və biliklərə malik olmaq;
- o ifaçılıq xüsusiyyətlərini düzgün tətbiq etmək, kompozisiya, forma, həmçinin harmonik, melodik və digər xüsusiyyətləri təhlil etmək;
- o konsertmeyster kimi müxtəlif alətləri, həmçinin vokal ifaçılarını müşayiət etmək, ifaçılıq bacarıqlarını tətbiq etmək;
- o interpretasiya zamanı partnyor ifaçılarla bədii sinxronluq və qarşılıqlı çeviklik nümayiş etdirmək;
- o müasir ifaçılıq və təlim metodlarından, rəqəmsal texnologiyalardan yaradıcılıqla istifadə edə bilmək;
- o müasir musiqi texnologiyalarını seçmək və tətbiq etmək
- o ansamblda ifaçılar arasında harmoniyalı ünsiyyət və qarşılıqlı uyğunlaşmanı təmin etmək;
- o məkanın akustik imkanlarına uyğun ifa edərək səslənmədə balans və aydınlığı təmin etmək.

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

***İnstrumental ifaçılıq (Xalq çalğı alətləri ifaçılığı (tar, kamança, qanun, nağara və balaban) (sahələr üzrə) ixtisaslaşması üzrə:***

- Müxtəlif tərkibli orkestr, ansambl və xalq çalğı alətləri orkestrlərində solist və orkestr artisti kimi çıxış etmək;
- Xalq çalğı alətləri ansambllarında rəhbər, konsertmeyster kimi fəaliyyət göstərmək, musiqi kollektivlərini təşkil etmək və idarə etmək, ifa prosesində kordinasiyanı təmin etmək;
- Azərbaycan muğam ifaçılıq ənənələrini mənimsəməklə müxtəlif musiqi üslublarına keçid və sintez etmək;
- Xalq çalğı alətlərinin ifa imkanlarını, diapazonunu nəzərə alaraq Azərbaycan və dünya musiqi nümunələrini solo, duet, trio, kvartet üçün işləyib köçürmək və əsərin yüksək səviyyədə ifasını təmin etmək;
- Xalq çalğı alətlərindən ibarət ansambllarda muğam kompozisiyalarını mükəmməl ifa etmək;
- Xalq çalğı alətləri üçün işlənmiş və köçürülmüş əsərləri təhlil etmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditləri n sayı |
|---|---|---|---|
| İnstrumental ifaçılıq (Xalq çalğı alətləri ifaçılığı (tar, kamança, qanun, nağara və balaban) | Magistr ali elmi-ixtisas | 1.5 il | 90 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir. | 6 |
| 2 | **Layihələrin idarə olunması**<br>Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələlər ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgünqiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır. | 6 |
|  | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | 54 |
| 3 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>Burada Ali təhsil müəssisələrində pedaqoji prosesin xüsusiyyətlərini öyrənirilir. Eyni zamanda müəllim–tələbə münasibətləri, təlimin metodları və prinsipləri əsas mövzu kimi dəyərləndirilir.Tədris metodları və texnologiyaları,müasir təlim metodlarını (mühazirə, seminar, problemli təlim, interaktiv metodlar və s.) tətbiq etməyi öyrədir. | 6 |
| 4 | **Xalq çalğı alətləri ifaçılığının müasir istiqamətləri**<br>Klassik ənənələrə əsaslansa da, müasir tələblərlə zənginləşdirilmiş vasitələrə əsaslanaraq tədris olunur. Həmçinin elektron musiqi ilə sintez, dünya musiqisinə inteqrasiya və yeni ifa texnikaları tətbiq olunur. | 6 |

| | | |
|---|---|---|
| 5 | **Yaradıcılıq işi**<br>Bu fənn fərdi bacarıqları üzə çıxarmaq üçün nəzərdə tutulur. Buraya Musiqi əsərlərinin təhlili, yeni interpretasiyalar, müəllif işləmələri daxildir. Məqsəd-tələbəni sərbəst, yaradıcı ifaçı kimi yetişdirmək. | 18 |
| 6 | **İxtisas - alətlər üzrə**<br>Hər bir tələbənin seçdiyi xalq çalğı alətində fərdi ifa bacarığını inkişaf etdirməyə yönəlmiş fənndir. Texniki vərdişlər, repertuar zənginliyi, ifa texnikasının mükəmməlləşdirilməsi öyrədilir. Əsas məqsəd tələbənin alətdə texniki,ifaçılıq və yaradıcılıq qabiliyyətlərini formalaşdırmaqdır. Eyni zamanda tələbənin gələcəkdə peşəkar ifaçı və pedaqoq kimi yetişməsini təmin edir. | 12 |
| 7 | **Muğam ifaçılığı**<br>Azərbaycan musiqi mədəniyyətinin zirvəsi olan muğamın nəzəri və praktik əsaslarını öyrədir. Şifahi ənənəli ifaçılıq məktəblərinə yiyələnmək, muğam dəstgahlarının quruluşunu bilmək əsas götürülürək lad sistemi və,muğam dəstgahlarının nəzəriyyəsini öyrədir. Fənn milli musiqi ənənələrinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıyır. | 12 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | 18 |
| 8 | **a) Ansambl (Duet)**<br>Bu fənn xalq çalğı alətlərində ifa edən tələbələrin bir-biri ilə musiqi qarşılıqlı fəaliyyətini, birlikdə səslənmə mədəniyyətini və kollektiv ifa bacarıqlarını formalaşdıran əsas tədris fənlərindən biridir. Bu fənn tələbələrin professional səhnə fəaliyyətinə hazırlanmasında xüsusi rol oynayır.<br>**b) Xalq çalğı alətləri orkestri (tam heyət)**<br>Bu fənn xalq çalğı alətləri ifaçılığı ixtisasında təhsil alan tələbələrin orkestr mədəniyyətini mənimsəməsini, kollektiv ifa bacarıqlarını inkişaf etdirməsini və peşəkar səviyyədə orkestr tərkibində çıxış etməyə hazırlaşmasını təmin edən əsas praktiki fənlərdən biridir. Bu fənn tələbəni həm ifaçı, həm də orkestr üzvü kimi formalaşdırır. | 6 |
| 9 | **a) Ansambl (trio kvartet)**<br>Bu fənn xalq çalğı alətləri ifaçılığı ixtisası üzrə 3 və 4 nəfərlik kollektivlərdə birgə ifa bacarıqlarını formalaşdırmağa yönəlib. Bu fənn ansamblda qarşılıqlı dinləmə mədəniyyətini, musiqi materialının bölüşdürülməsini, həmçinin müxtəlif alət timbrlərinin bir-birini tamamlamasını öyrədir.<br>Fənn çərçivəsində balans, ritm vahidliyi, intonasiya uyğunluğu, musiqi frazalarının bölünməsi, dinamika idarəsi kimi əsas ansambl ifa prinsipləri mənimsənilir. Eyni zamanda xalq musiqisinin nümunələri, klassik milli bəstəkarların kamera-instrumental əsərləri, rəqs və mahnı işləmələri üzərində işlənilir.<br>Trio və kvartet tərkibində hər bir alətin funksiyasını — melodik xətt, harmonik dəstək, ritmik müşayiət — dəqiq öyrənilir, kollektiv ifanın peşəkar | 6 |

| | | |
|---|---|---|
| | səviyyədə formalaşdırılmasına nail olunur.<br>**b) Orkestr (Kamera heyəti)**<br>Bu fənn böyük kollektivdə ifa etməyi öyrədir. Ansambl və kollektiv intizam, ifa sinxronluğu formalaşdırılır. Xalq çalğı alətləri orkestri üçün xüsusi repertuar üzərində işlənilir. Orkestr fənni kollektiv ifa bacarığını formalaşdırır. Xalq çalğı alətləri orkestri həm milli, həm də klassik musiqi əsərlərinin geniş auditoriyaya təqdim edilməsində mühüm rol oynuyur. Orkestr fənni həm də milli musiqinin yeni işlənmələrdə təqdim olunmasına imkan yaradır. | |
| 10 | **a) Konsert ifaçılığı**<br>Burada ifaçının solo çıxışı əsas götürülür və virtuoz texniki bacarıqlar nümayiş olunur. İfaçı səhnədə peşəkar səhnə mədəniyyətinə, bədii ifadəliliyə və emosional təsir gücünə malik olmalıdır.<br>**b) Konsertmeyster ustalığı**<br>Bu fənn xalq çalğı alətləri ifaçılarının müşayiət bacarıqlarını inkişaf etdirməyə, ansamblda və solo ifaçılarla birgə işləmək mədəniyyətini formalaşdırmağa yönəlmiş mühüm tədris fənnidir. Fənnin əsas məqsədi tələbəni peşəkar səviyyədə müşayiətçi (konsertmeyster) kimi yetişdirmək, onun musiqi düşüncəsini, ansambl eşitmə qabiliyyətini və səhnə davranışını inkişaf etdirməkdir. | 6 |
| | **Təcrübə** | 6 |
| ... | **Elmi-pedaqoji təcrübə**<br>"Elmi pedaqoji təcrübə" fənninin əsas məqsədi magistrantlarda ali təhsil mühitində pedaqoji fəaliyyətin elmi əasalarını tətbiq etmək və tədris prosesində nəzəri bilikləri praktik bacarıqlara çevirməkdir. Fənn tələbələrə elmi-tədqiqat yanaşmasını pedaqoji fəaliyyətlə inteqrasiya etməyi, tədris prosesində analitik və yaradıcı bacarıqlarını müasir yeni pedaqoji fəaliyyət üzrə yeni innovasiyaları tədrisdə istifadə etməlidir. Gələcək tədris prosesində pedaqoji fəaliyyətini elmi əsaslarla planlaşdırmalı, qiymətləndirmə bacarığına malik olur, pedaqoji fəaliyyətlə bağlı hesabat və layihələri hazırlaya bilir. | 6 |
| CƏMİ | | 90 |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.

Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

**İnstrumental ifaçılıq (Xalq çalğı alətləri ifaçılığı (tar, kamança, qanun, nağara və balaban) ixtisaslaşması üzrə:**

İxtisas və ansambl məşqləri üçün sahə üzrə müxtəlif alətlər ( tar, kamança, qanun, balaban, nağara, qarmon alətləri ) ilə təchiz edilmiş sinif otaqları;
Akustik baxımdan (səsin dağılımı, əks-səda və s.) təkmilləşdirilmiş konsert salonu və kamera musiqisi zalı, təlim və tədris otaqları;
Not kitabxanası (alətlər üzrə);
Audiovizual texnologiyalarla təchiz olunmuş multimedia avadanlıqları (ifa analizləri, tədris təqdimatları və s. üçün);
Musiqi texnologiyaları laboratoriyası (ifa yazıları, redaktə və interpretasiya araşdırmaları üçün müvafiq proqram təminatı ilə təchiz olunmuş);
Fortepiano aləti üzrə konsertmeyster ilə məşqlər üçün royalla təchiz edilmiş sinif otaqları.
Hər alətin saxlanılması üçün uyğun otaqlar;
Alətlərin təmiri və baxımı üçün xüsusi otaq;
Səs izolyasiyası ilə təmin edilmiş səhnə və tədris otaqları;
Məşqlər üçün yaxşı işıqlandırılmış və havalandırılmış xüsusi otaqlar.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Xalq Çalğı Alətləri ifaçılığı ixtisası üzrə magistratura təhsili almış mütəxəssis Mədəniyyət Nazirliyi və digər dövlət və özəl və bələdiyyə qurumları nəzdində fəaliyyət göstərən ansambllarda solo ifaçı, bədii rəhbər, orkestr artisti, orkestr direktoru; ali təhsil müəssisələrində pedaqoq, solist, bədii rəhbər, konsertmeyster, konsertmeyster-illüstrator; filarmoniyalar, konsert təşkilatlarında solist, konsertmeyster, ansambl üzvü, bədii rəhbər; müxtəlif teatrlarda müşayiətçi (konsertmeyster), orkestr artisti, XÇA orkestrlərində solo ifaçı, bədii rəhbər, orkestr artisti, orkestr direktoru və s.; konsert, festival və müsabiqələrin təşkilatçısı və meneceri; media və yaradıcı sənayelər üzrə musiqi tərtibatçısı, redaktor işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**

**İnstrumental ifaçılıq (Xalq çalğı alətləri ifaçılığı (tar, kamança, qanun, nağara və balaban) ixtisaslaşması üzrə:**

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| PTN 1. Xalq çalğı alətində peşəkar ifaçılıq texnikasının ən yüksək səviyyəsinə nail olaraq, solo konsert proqramını hazırlayacaq və çıxış edəcək. İfaçılıq təcrübəsi və nəzəri biliklərə əsaslanaraq ixtisas yönümlü repertuarı hazırlamağı və proqramı fərdi tərtib etməyi bacaracaq. |
| PTN 2. Xalq çalğı alətlərinin özünəməxsus bədii-texniki imkanlarını hərtərəfli mənimsəyərək müxtəlif ansambl və orkestrlərdə solo və orkestrin tərkibində çıxış edəcək. |
| PTN 3. Müxtəlif tərkibli xalq çalğı alətləri ansambllarında mürəkkəb və geniş dramaturji quruluşa malik muğam kompozisiyalarını mükəmməl ifa etməyi bacaracaq. |
| PTN 4. Azərbaycan muğam ifaçılığı ənənələrini dərindən mənimsəməklə yanaşı, müxtəlif musiqi üslublarının prinsiplərini də qavrayacaq və bu üslubları müstəqil şəkildə sintez edə biləcək. |
| PTN 5. Xalq çalğı alətləri üçün dünya musiqisinin işlənilməmiş nümunələrini işləyib köçürməklə yanaşı ifa və təhlil etmə bacarığına malik olacaq. Musiqi obrazlarını konseptual şəkildə formalaşdırmağı bacaracaq. |
| PTN 6. Konsertmeyster kimi müxtəlif alətləri, həmçinin vokal ifaçılarını müşayiət etməyi bacaracaq. İfaçılıq bacaraıqlarını düzgün tətbiq edəcək, kompozisiya, forma, həmçinin harmonik, melodik və digər xüsusiyyətləri təhlil etməyi bacaracaq. |
| PTN 7. Azərbaycan və dünya musiqi mədəniyyətinə dair geniş nəzəri bazaya malik olacaq. İfa etdiyi əsərlər haqqında geniş məlumat və biliklərə malik olacaq. Müasir musiqi texnologiyaları haqqında məlumata malik olacaq və tətbiq etməyi bacaracaq. |
| PTN 8. Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Xalq çalğı alətləri ifaçılığı sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| PTN 9. Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazacaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarına malik olacaq. |
| PTN 10. Layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətlərini, layihədə liderlik, layihə menecerinin vəzifələrini və digər məsələləri biləcək. Layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzular haqqında biliklərə malik olacaq. Layihələrin çevik idarə edilməsi ilə bağlı riskləri düzgün qiymətləndirəcək. "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. haqqında biliklərə malik olacaq və tətbiq edə biləcək. Musiqi yönümlü layihələrin təşkili və idarə olunmasında konsert menecmenti prinsiplərindən istifadə etməyi bacaracaq. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Layihələrin idarə olunması fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yenilələmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| Xalq çalğı alətləri ifaçılığının müasir istiqamətləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Xalq çalğı alətlərinin tarixi inkişaf mərhələlərini, ənənəvi ifaçılıq məktəblərini və müasir dövrdəki yeni istiqamətləri izah edə biləcək. Xalq musiqisi ilə professional musiqi mədəniyyəti arasında qarşılıqlı əlaqəni şərh edəcək. |

| |
|---|
| FTN 2.Xalq çalğı alətlərində (tar, kamança, saz, balaban, qanun və s.) ənənəvi ifa üslubunu qorumaqla yanaşı, müasir texniki üsullardan istifadə edə biləcək. Muğam, xalq mahnısı və rəqs nümunələrini müasir tələblərə uyğun ifa edəcək. |
| FTN 3.Müasir ifa texnikalarını tətbiq edərək musiqi nümunələrini məharətlə ifa edib, stil və üslub müxtəlifliyini nəzərə alaraq repertuar seçimi edə biləcək. |
| FTN 4. Xalq çalğı alətlərinin ifasında innovativ yanaşmaları (elektron müşayiət, sintez, improvizasiya və janr sintezi) tətbiq edə bilir, ənənəvi və müasir ifa modellərini müqayisəli şəkildə təhlil edəcək və interpretasiya bacarığını nümayiş etdirəcək. |
| FTN 5. Ansambl və orkestr tərkibində peşəkar ifaçılıq bacarıqlarını nümayiş etdirib, kollektiv ifa zamanı üslub uyğunluğu, intonasiya dəqiqliyi və ritmik koordinasiyanı təmin edib, dirijor və digər ifaçılarla effektiv əməkdaşlıq quracaq. |
| FTN 6. Xalq çalğı alətlərinin ifaçılığı sahəsində müasir tendensiyaları, beynəlxalq təcrübəni və rəqəmsal texnologiyaların rolunu təhlil edib, əldə etdiyi bilikləri elmi və praktik müstəvidə tətbiq edərək yaradıcılıq fəaliyyətini inkişaf etdirəcək. |

| **Yaradıcılıq işi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Yaradıcılıq anlayışının mahiyyətini, psixoloji və pedaqoji əsaslarını geniş izah verərək, yaradıcılıq fəaliyyətinin tarixi inkişaf mərhələlərini və müasir istiqamətlərini şərh edəcək. |
| FTN 2. Yaradıcılıq fəaliyyətində müstəqil ideya formalaşdırmaq və onu həyata keçirmək bacarığına yiyələnmək vərdişi yaradaraq inkişaf etdirəcək. İfaçının yaradıcılıq potensialını reallaşdırmaq üçün fərdi plan quraraq bu potensiala stimul verəcək. |
| FTN 3.İdeyanın layihələndirilməsi, işlənməsi və təqdim olunması mərhələlərini müstəqil həyata keçirilməsi üçün yeni idea quruluşu təklif edəcək. Müxtəlif yaradıcılıq üsullarından (beyin həmləsi, layihə metodu, problemli yanaşma və s.) istifadə etmək qabiliiyyətini formalaşdıracaq. |
| FTN 4. Yaradıcılıq fəaliyyətində müxtəlif janr və üslubların xüsusiyyətlərini təhlil edərək, onları praktik yaradıcılıq prosesində tətbiq etmək bacarığı nümayiş etdirəcək. Müasir incəsənət və yaradıcılıq tendensiyalarını müqayisəli şəkildə dəyərləndirərək fərdi yaradıcılıq yanaşmasını formalaşdıracaq. |
| FTN 5. Yaradıcılıq məhsulunun hazırlanması və təqdimatı zamanı estetik, texniki və kommunikativ meyarları əsaslandıraraq, yaradılmış işi auditoriyaya effektiv şəkildə təqdim etmək bacarığını inkişaf etdirəcək. Tənqidi təhlil və özünüqiymətləndirmə mexanizmlərindən istifadə edəcək. |
| FTN 6. Yaradıcılıq fəaliyyətində komanda işi və əməkdaşlıq prinsiplərini tətbiq edərək, birgə layihələrin hazırlanması və idarə olunması bacarıqlarını mənimsəyəcək. Yaradıcılıq mühitində etik davranış normalarına riayət edəcək və peşəkar məsuliyyət nümayiş etdirəcək. |

| **İxtisas - alətlər üzrə fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1.İxtisas alətlərinin quruluşunu, funksional xüsusiyyətlərini və növlərini izah edə biləcək. İxtisas alətlərinin tarixini və inkişaf mərhələlərini öyrənəcək. Hər bir alətin texniki göstəricilərini və istifadə qaydalarını mənimsəyəcək. İxtisasa uyğun nəzəri bilikləri (məsələn, musiqi nəzəriyyəsi, texniki normalar) öyrənəcək. |
| FTN 2. Aləti praktikada düzgün və sərbəst tətbiq edə biləcək. Müxtəlif situasiyalarda (tədris, yaradıcılıq, istehsalat) alətdən istifadə etməyi bacaracaq. |
| FTN 3.Öz ixtisasına və alətinə qarşı məsuliyyətli yanaşacaq. Milli-mədəni və ya texniki dəyərlərə hörmət göstərəcək. Fərdi və kollektiv iş zamanı əməkdaşlıq bacarığı nümayiş etdirəcək. Peşə etikası və intizam qaydalarına əməl edəcək. |

| |
|---|
| FTN 4.Müxtəlif peşəvi problemlərin həllində ixtisas alətlərindən düzgün istifadə etməyi bacaracaq. Gələcəkdə müstəqil fəaliyyət göstərmək üçün peşəkar hazırlıq qazanacaq. |
| FTN 5. İxtisas alətləri ilə bağlı texnoloji yenilikləri və müasir tendensiyaları izləyə biləcək. Rəqəmsal alətlər, proqram təminatları və innovativ texniki vasitələrdən istifadə bacarığı nümayiş etdirəcək. Öz peşə sahəsində yeni metod və yanaşmaları tətbiq etməklə yaradıcılıq potensialını inkişaf etdirəcək. Müasir informasiya mühitində alətlərlə işləmə bacarıqlarını təkmilləşdirəcək. |
| FTN 6. İxtisas alətləri üzrə əldə etdiyi bilik və bacarıqları analitik və tənqidi şəkildə qiymətləndirə biləcək. Öz fəaliyyətini təhlil edərək inkişaf istiqamətlərini müəyyənləşdirəcək. Peşəkar təqdimat və nümayiş bacarıqlarını (ifa, təqdimat, texniki izah) formalaşdıracaq. İxtisas sahəsində əldə etdiyi nəticələri elmi və praktik əsaslarla əsaslandırmağı bacaracaq. |

| **Muğam ifaçılığı fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Azərbaycan muğam sənətinin tarixi, nəzəriyyəsi və janr xüsusiyyətlərini biləcək. Muğamların lad-melodik əsaslarını, şöbə və guşələrinin quruluşunu öyrənəcək. Ənənəvi muğam məktəbləri (Şirvan, Qarabağ, Bakı, Təbriz və s.) haqqında biliklərə yiyələnəcək. |
| FTN 2.Muğam dəstgahlarını ardıcıllıqla və peşəkar səviyyədə ifa edə biləcək. Muğamın şöbə və guşələri arasında keçidlər qurmaq bacarığına malik olacaq. Tar, kamança və ya digər alətdə muğamın texniki və emosional incəliklərini sərbəst ifa edəcək. |
| FTN 3. Muğam sənətinə, milli-mədəni irsə və ustad ifaçılara hörmətlə yanaşacaq. İfa zamanı səhnə mədəniyyətinə, etik qaydalara əməl edəcək. |
| FTN 4.Muğam ifaçısı kimi müstəqil konsert fəaliyyəti göstərə biləcək. Müxtəlif auditoriyalara (yerli və beynəlxalq səhnələrdə) Azərbaycan muğamını təqdim etmək bacarığına yiyələnəcək. |
| FTN 5.Yaradıcı şəkildə öz ifa üslubunu formalaşdıracaq. Daimi özünüinkişaf və ustad ifaçıların təcrübəsindən bəhrələnmə vərdişi qazanacaq. |
| FTN 6. Muğam ifaçılığı sahəsində əldə etdiyi bilik və bacarıqları elmi-analitik yanaşma ilə əsaslandırıb, ifa prosesini refleksiya edəcək və peşəkar fəaliyyətində innovativ interpretasiya üsullarından istifadə edəcək. |

| **Ansambl (duet) fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1.Duet ifasında ahəng, dinamika və intonasiya balansını qura biləcək. |
| FTN 2.Müxtəlif xalq çalğı alətlərini duet şəklində səsləndirmə bacarığına malik olacaq. |
| FTN 3.Repertuar üzrə 3–5 əsəri peşəkar səviyyədə duet formada ifa edə biləcək. |
| FTN 4.Rəngarəng üslublarda ifa etməyi (xalq, muğam, bəstəkar musiqisi) bacaracaq. |
| FTN 5. Səhnədə duetlə çıxış etmə qaydalarını tətbiq edəcək. |
| FTN 6.Ansambl qərarlarını müzakirə edir, musiqi tərəfdaşı ilə koordinasiyalı işləyəcək. |

| **Xalq çalğı alətləri orkestri (tam heyət) fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1.Orkestr mədəniyyəti və struktur bilikləri, Xalq çalğı alətləri orkestrinin tam heyət tərkibini, alət qruplarının funksiyasını və səslənmə xüsusiyyətlərini izah edəcək. Orkestrdə balans, dinamika, intonasiya və tembr uyğunluğunun prinsiplərini tətbiq edəcək. |

| |
|---|
| FTN 2.Not oxuma və partiya ifası bacarığı,öz partiyasını not mətni əsasında dəqiq oxuyacaq və orkestr kontekstində düzgün ifa edəcək. Çətin ritmik və melodik keçidlərdə texniki dəqiqliyi qoruyacaq. Orkestr partiturasındakı işarələrin – dinamika, artikulyasiya, temp dəyişmələri – tətbiqini sərbəst yerinə yetirəcək. |
| FTN 3.Orkestr qrupları arasında səslənmə balansını və ansambl uyğunluğunu qoruyacaq. Kollektivdə öz yerini düzgün müəyyən edəcək və digər ifaçılarla sinxron şəkildə işləyəcək. Orkestr nitqini – frazalanma, nəfəsalma (hava alətləri üçün), vurğu və muzikal ifadəni – praktikada tətbiq edəcək. |
| FTN 4.Dirijorun jestlərini, giriş və dayanış işarələrini düzgün oxuyacaq və vaxtında reaksiya verəcək.Temp dəyişikliyini, dinamika göstərişlərini və dirijorun interpretasiya tələblərini ifasında əks etdirəcək. |
| FTN 5. Orkestr üçün seçilmiş əsərlərin stil, janr və xarakter xüsusiyyətlərini təhlil edəcək. Xalq musiqisi nümunələrinin orkestr işləmələrini düzgün interpretasiya edəcək. Orkestr repertuarını texniki və bədii cəhətdən hazırlayacaq və konsert çıxışlarında tətbiq edəcək. |
| FTN 6. Orkestrdə səhnə mədəniyyətinə uyğun şəkildə davranıb, müəyyən olunmuş qaydalara riayət edəcək. Konsert və imtahan çıxışlarında öz partiyasını məsuliyyətlə və peşəkarlıqla təqdim edəcək. |

| **Ansambl (trio kvartet) fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1.Trio və kvartet tərkibində düzgün ifa etikası və davranışını nümayiş etdirəcək. |
| FTN 2. Ansamblda ümumi tembr balansını qoruyub, digər ifaçılarla sinxron ritm və intonasiya yaradacaq. |
| FTN 3. Musiqi əsərinin quruluşunu (forma, fraza, dinamika) nəzərə alaraq kollektivlə uyğun ifadəlilik göstərəcək. |
| FTN 4. Ansamblda liderlik və müşayiət funksiyalarını situasiyaya uyğun şəkildə bölüşdürüb, musiqi materialının interpretasiyasında kollektiv qərarvermə bacarığı nümayiş etdirəcək. |
| FTN 5. Repertuar üzərində müstəqil və qrup şəklində məşq strategiyaları qurur, məşq prosesində kommunikasiya və qarşılıqlı dinləmə bacarıqlarını effektiv tətbiq edəcək. |
| FTN 6. Səhnə performansı zamanı ansambl daxilində vizual və jestik əlaqəni təmin edib, auditoriya qarşısında yüksək bədii-estetik səviyyədə çıxış edəcək. |

| **Orkestr (kamera heyəti) fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Xalq çalğı alətləri orkestrinin tərkibində öz alət partiyasını dəqiq və intonasiyalı ifa edib, kollektiv ifa zamanı ümumi musiqi harmoniyasına uyğunlaşacaq. Orkestr intizamını qoruyub, dirijorun işarələrinə diqqətlə əməl edəcək və ansamblda harmonik səslənməni təmin edəcək. |
| FTN 2. Kollektiv ifa zamanı yaradıcılıq və məsuliyyət hissi nümayiş etdirib, musiqiçilər arasında qarşılıqlı ünsiyyəti formalaşdıracaq.Orkestr repertuarını mənimsəməklə həm milli musiqini, həm də dünya musiqisini geniş auditoriyalara təqdim edib, milli musiqi ənənələrinin təbliğində iştirak edəcək. |
| FTN 3. Böyük musiqi kollektivində ifa zamanı dinamik balansı qoruyub, digər alətlərlə uyğunlaşaraq musiqi bütövlüyünə xidmət edib, milli və klassik əsərlərin orkestr işlənmələrini mənimsəyib, onların ifasında emosional ifadəliliyi təmin edəcək. |
| FTN 4. Musiqi əsərlərinin partiturasını oxuma və təhlil etmə bacarığını nümayiş etdirib, orkestr daxilində öz partiyasının funksional rolunu düzgün müəyyən edəcək. Musiqi forması, üslub xüsusiyyətləri və janr tələblərini nəzərə alaraq ifa prosesində şüurlu interpretasiya həyata keçirəcək. |

| |
|---|
| FTN 5. Orkestr məşqlərində və səhnə çıxışlarında peşəkar davranış qaydalarına riayət edib, kollektiv iş prosesində vaxtın səmərəli idarə olunmasına və intizamın qorunmasına töhfə verəcək. Texniki və bədii problemlərin həllində təşəbbüskarlıq göstərəcək və fərdi ifa bacarıqlarını davamlı olaraq inkişaf etdirəcək. |
| FTN 6. Müasir ifaçılıq texnologiyalarından və notasiya proqramlarından istifadə etməklə orkestr fəaliyyətini dəstəkləyib, yeni musiqi materiallarının öyrənilməsində rəqəmsal resurslardan effektiv faydalanacaq. Səhnə mədəniyyəti, akustik mühit və tamaşaçı ilə kommunikasiya prinsiplərini nəzərə alaraq yüksək səviyyəli ifa təqdim edəcək. |

| **Konsert ifaçılığı fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1.Konsert ifaçılığının nəzəri əsaslarını öyrənəcək. Musiqi əsərlərinin üslub, janr və tarixi xüsusiyyətlərini təhlil etmək o cümlədən Səhnə mədəniyyəti, çıxış qaydaları və tamaşaçı ilə ünsiyyət prinsiplərinin mənimsənilməsində iştirak edəcək. Konsert proqramının hazırlanma mərhələləri öyrəniləcək. |
| FTN 2. Müxtəlif üslub və janrlarda musiqi əsərlərini yüksək peşəkarlıqla ifa etmək bacarığı mənimsəniləcək.Konsert proqramını qurmaq, əsərləri ardıcıllıqla təqdim etmək bacarığına yiyələnəcək. İfa zamanı emosional ifadəlilik, bədii təfəkkür və texniki dəqiqlik nümayiş etdiriləcək. |
| FTN 3.Milli-mədəni irsə və dünya musiqi mədəniyyətinə hörmətlə yanaşacaq. İfaçılıqda yaradıcı yanaşma və fərdi üslub formalaşdıracaq. |
| FTN 4.Konsert fəaliyyətində müstəqil ifaçı kimi çıxış edə biləcək. Müxtəlif auditoriyalar qarşısında (yerli, beynəlxalq səhnələrdə) uğurla çıxış etməyi bacaracaq. |
| FTN 5. İfa prosesində səhnə davranışı, psixoloji hazırlıq və stressin idarə olunması bacarıqlarını tətbiq edəcək. Repetisiya və konsert fəaliyyətində özünüidarəetmə, vaxtın səmərəli təşkili və peşə etikası normalarına əməl edəcək. |
| FTN 6. Müasir texnologiyalardan və rəqəmsal vasitələrdən istifadə edərək konsert fəaliyyətini təşkil edib, audio-video yazıların hazırlanması və təqdimat bacarıqlarını inkişaf etdirəcək. İfaçılıq fəaliyyətinin təhlili və özünüqiymətləndirmə yolu ilə peşəkar inkişaf istiqamətlərini müəyyənləşdirəcək. |

| **Konsertmeyster ustalığı fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Konsertmeysterin funksiyasını və səhnədə rolunu izah edib, müşayiətin əsas prinsiplərini anlayacaq. Solo ifaçı ilə ansambl uyğunluğunu qurub, tempi, dinamikanı və intonasiyanı dəqiq tənzimləyəcək. |
| FTN 2.Xalq musiqisinin müxtəlif janrları üzrə (rəqs, mahnı, təsnif, rəng və s.) müvafiq müşayiət fakturası hazırlayacaq. Nota baxaraq ifa etmə (prima vista) bacarığını nümayiş etdirəcək və operativ reaksiya verəcək. |
| FTN 3. Xalq çalğı alətlərinin ifa xüsusiyyətlərini nəzərə alaraq səlist, balanslı və stabilliyi qoruyan müşayiət edəcək. Ansamblda kollektiv eşitmə, ritmik dəqiqlik və vəhdət hissini tətbiq edəcək. |
| FTN 4. Hazırlanan repertuar üzərində musiqi materialını təhlil edib, üslub və xarakterə uyğun interpretasiya edəcək. Səhnə mədəniyyəti, davranış və peşəkar etikaya uyğun şəkildə çıxış edəcək. |
| FTN 5.Müxtəlif ifaçıların texniki səviyyəsinə uyğun adaptasiya olunma bacarığı göstərib, lazım gəldikdə improvizasiya elementlərindən istifadə edəcək. Konsert və məşq şəraitində məsuliyyətli, yaradıcı və təşəbbüskar fəaliyyət nümayiş etdirəcək. |

| |
|---|
| FTN 6. Müasir konsertmeyster fəaliyyətində kommunikasiya bacarıqlarını inkişaf etdirib, dirijor və ifaçılarla effektiv əməkdaşlıq quracaq. Repertuar seçimi, məşq planlaşdırılması və səhnə hazırlığı proseslərini sistemli şəkildə təşkil edəcək. |

| Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2. Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3. Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5. Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6. Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

Əlavə 2

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 |
| Akademik yazı və etika | | | | | | | | | x | |
| Layihələrin idarə olunması | | x | | | | | | | | x |
| Ali məktəb pedaqogikası | | | | | | | | x | | |
| Xalq çalğı alətləri ifaçılığının müasir istiqamətləri | | | | | x | | x | | | |
| Yaradıcılıq işi | x | | x | | | | | | | |
| Konsert ifaçılığı | | x | | | | | | | | |
| Ixtisas - alətlər üzrə | x | | | | | x | | | | |
| Not ifaçılığı | x | | | | | | | | | |
| Muğam ifaçılığı | | | x | x | | | | | | |
| Xalq musiqi ifaçılığı | | | x | | | | | | | |
| Xalq çalğı alətləri orkestri (tam heyət) | | | | | | | x | | | x |
| Ansambl (duet) | | x | | | | x | | | | |
| Ansambl (trio kvartet) | | | | | x | | | | x | |
| Orkestr (kamera heyəti) | | x | | | | | | | | |
| Konsertmeyster ustalığı | | | | x | | | | | x | |
| Elmi-pedaqoji təcrübə | | | | | | | | x | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Xalq çalğı alətləri ifaçılığı kafedrasının müdiri:** ____________ **Umud İbrahimov**

**ADMİU-nun Musiqi sənəti fakültəsinin dekanı:** ____________ **İradə Xəlilova**